# Ömər Faiq Nemanzadə və "Molla Nəsrəddin" ədəbi məktəbi

**Gülbəniz Babayeva**
Filologiya üzrə fəlsəfə doktoru
AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutu. Azərbaycan.
E-mail: gulbeniz_babayeva@mail.ru

**Annotasiya.** Məqalədə görkəmli publisist, yazıçı, müəllim, naşir, tənqidçi Ömər Faiq Nemanzadənin "Molla Nəsrəddin" ədəbi məktəbinin yaradılması, formalaşması və beynəlxalq aləmdə yayılmasında göstərdiyi müstəsna xidmətlərdən söhbət açılır. Azərbaycan xalqının milli oyanışında, azadlıq və demokratiya uğrunda mübarizəsində böyük realist ədibimiz Cəlil Məmmədquluzadə ilə Ömər Faiq Nemanzadəni birləşdirən əqidə və məslək birliyi konkret faktlar əsasında tədqiqata cəlb olunur. "Molla Nəsrəddin" ədəbi hərəkatının əsas yaradıcılarından olan Ö.F.Nemanzadə "Qeyrət" mətbəəsinin alınması, "Molla Nəsrəddin" jurnalının nəşrə başlaması və Şərq xalqlarının taleyində müstəsna rol oynamasında, elm, maarif və mədəniyyətin tərəqqisində Cəlil Məmmədquluzadənin ən yaxın silahdaşlarından biri olmuşdur. Jurnalda dərc edilən publisistik yazıların, felyetonların, teleqraf xəbərlərinin, eləcə də karikaturaların seçilməsində ədibin böyük xidmətləri vardır.
1912-ci ilə qədər "Molla Nəsrəddin"də fəaliyyət göstərən Ö.F.Nemanzadə təşkilati işlərlə yanaşı, həm də jurnalda "Molla Nəsrəddin", "Dərdmənd", "Dəli", "Mozalan", "Cəhrəçi xala", "Çoban", "Heyrani", "Məşrutəçi", "Lağlağı", "Ümidvar", "Ümid" və s. gizli imzalarla publisistik məqalə və felyetonlarını dərc etdirmişdir.
**Açar sözlər:** Ömər Faiq Nemanzadə, Cəlil Məmmədquluzadə, "Molla Nəsrəddin" jurnalı, "Qeyrət" mətbəəsi, "Dərdmənd", "Ümidvar", satirik publisistika

**Məqalə tarixçəsi:** göndərilib – 10.11.2022; qəbul edilib – 18.11.2022

# Omar Faig Nemanzade and "Molla Nasraddin" literary school

**Gulbeniz Babayeva**
Doctor of Philosophy in Philology
Institute of Literature named after Nizami Ganjavi of ANAS. Azerbaijan.
E-mail: gulbeniz_babayeva@mail.ru

**Abstract.** The article talks about the exceptional merits of the famous publicist, writer, teacher, publisher, critic Omar Faig Nemanzade in the creation, formation and dissemination of the Molla Nasreddin literary school at the international level. The unity of beliefs and activities of our great realist writers Jalil Mammadquluzade and Omar Faig Nemanzade in the cause of the national awakening of the Azerbaijani people, in the struggle for freedom and democracy, is touched upon in a study based on concrete facts. O.F.Nemanzade, one of the main founders of the Molla Nasreddin literary movement, was one of the closest associates of Jalil Mammadguluzade in the acquisition of the "Geyrat" printing house, the beginning of the publication of the Molla Nasreddin magazine, which played an exceptional role in the fate of the peoples of the East, in the progress of science, education and culture. The writer has great merits in the selection of journalistic articles, feuilletons, telegraph news, as well as cartoons published in the magazine. The article mentions that O.F.Nemanzade, who worked at Molla Nasreddin until 1912, along with organizational work, also published journalistic articles and feuilletons with secret signatures in the journal, such as "Molla

Nasreddin", "Dardmand", "Deli", "Mozalan", "Jahrachi khala", "Choban (Shepherd)", "Heyrani", "Mashrutachi", "Laglagi", "Umidvar" and "Umid", etc.
**Keywords:** Omar Faig Nemanzade, Jalil Mammadguluzade, "Molla Nasreddin" magazine, "Geyrat" printing house, "Dardmand", "Umidvar", satirical journalism

**Article history:** received − 10.11.2022; accepted − 18.11.2022

## Giriş / *Introduction*

Azərbaycan xalqının ictimai və milli şüurunun oyanması və formalaşmasında müstəsna xidmətləri olan görkəmli publisist, yazıçı, müəllim, naşir, tənqidçi və dövlət xadimi Ömər Faiq Nemanzadə türk dünyasının azadlığı, milli və mədəni dirçəlişi, xoşbəxt gələcəyi uğrunda cəsarət və əzmkarlıqla mübarizə aparan qüdrətli ziyalılarımızdan biridir. Ədib dövrünün tanınmış söz sahibi, böyük hörmət və nüfuza, geniş dünyagörüşə, dərin biliyə, bütöv xarakterə malik şəxsiyyəti kimi bütün yaradıcılığı boyu milli təəssübkeşlik, yüksək vətənpərvərlik hissilə yazıb-yaratmış və istiqlal ideyalarına söykənən əsərləri ilə öz həmvətənlərini birliyə, həmrəyliyə səsləmişdir. Görkəmli ədib Ömər Faiq Nemanzadə böyük realist yazıçımız Cəlil Məmmədquluzadə ilə hələ "Şərqi-Rus" qəzetində birgə fəaliyyət göstərərkən tanış olmuş və bu ünsiyyət sonralar səmimi dostluğa və "Molla Nəsrəddin" satirik jurnalının nəşrinə gətirib çıxarmışdır. Cəlil Məmmədquluzadə "Xatiratım"da Ömər Faiqlə tanışlığını, dostluğunu yada salaraq yazır: "Yoldaşım Faiq Nemanzadəni mən birinci dəfə "Şərqi-Rus" qəzeti idarəsində gördüm və burada da onunla üns tutdum... Bu qəzetin idarəsində mən elə bir yoldaşa rast gəldim ki, onun varlığı ilə, onun yoldaşlığı ilə "Molla Nəsrəddin" məcmuəsini bina etdim. Daha doğrusu, onunla bərabər, onunla birlikdə "Molla Nəsrəddin" məcmuəsini bina etdik" [3, s.144]. Ədib bu fikri də xatırladır ki, "Şərqi-Rus" qəzetinin redaktoru "Məhəmməd ağanın idarəsinin fəal qələm köməkçiləri Ömər Faiq və mən idim". Nəhayət, 1906-cı ilin 7 aprelində "Molla Nəsrəddin" jurnalının nəşrə başlaması ilə onlar öz məqsədlərinə nail ola bildilər. Mətbuat və ədəbiyyat tariximizə "mollanəsrəddinçilər" adı ilə daxil olan böyük bir ədəbi cərəyanın ideya yükünün əsas aparıcı qüvvəsinin biri Cəlil Məmmədquluzadə idisə, digəri də Ömər Faiq Nemanzadə idi.

## Əsas hissə / *Main Part*

"Qeyrət" mətbəəsinin və "Molla Nəsrəddin" jurnalının yaradıcılarından olan Ö.F.Nemanzadə həm də qeyri-rəsmi ikinci redaktor vəzifəsini icra etmişdir. Ö.F.Nemanzadə Türkiyədə təhsil aldığına görə, Mətbuat Komitəsi "Molla Nəsrəddin" jurnalının redaktorluğunun icrasına icazə verməmişdir. C.Məmmədquluzadə "Xatiratım"da yazır: "... mən hökumət darülmüəllimini bitirmiş bir cavan idim, amma Ömər Faiq Türkiyədə təhsil tapmış bir cavan idi və zənn edirəm ki, mətləb burada aşkar olur" [4, s.59]. Buna görə də C.Məmmədquluzadə Qarabağa gedərkən redaktorluq müvəqqəti olaraq Məmmədəli Sidqiyə həvalə olunmuşdur. Amma Cəlil Məmmədquluzadə 1911-ci ildə Qarabağdan Tiflisə, M.Sidqiyə göndərdiyi məktubda yazırdı: "Bunu sənə qabaqlar da istəyirdim yazam ki, Faiq əfəndi bundan sonra orada sahibi-ixtiyardır, hər barədə: xərclər və pullar barəsində, habelə jurnalın məzmunu barəsində. Ondan sonra sənsən" [4, s.312].

"Molla Nəsrəddin" jurnalı ilə bağlılığı Ö.F.Nemanzadənin publisistik fəaliyyətinin məhsuldar bir dövrünü təşkil edir və o, Mirzə Cəlilin ən yaxın dostuna və məsləkdaşına çevrilir. Ö.F.Nemanzadənin yazdığından bəlli olur ki, jurnalın mütləq "şəkilli olmasına" diqqət yetirilməlidir. Çünki xalq öz düşmənlərinin "canlı surətdə, gülməli şəkildə" məsxərəyə qoyulduğunu görəndə sevinəcək, "Molla Nəsrəddin"in

simasında öz himayəçisini görəcəkdir. Bu, özünü doğrultdu. Ö.F.Nemanzadənin xatirəsində deyilir: "Jurnala olan rəğbət ancaq və ancaq geniş kütlə tərəfindən idi. Bəylərdən, dövlətlilərdən, ruhanilərdən ətək-ətək söyüş, lənət və hədə kağızları alırdıq. Jurnala yuxarıdakı təbəqədən lənət, nifrət yağır, əməkçi deyilən aşağı təbəqədən isə hörmət qalxırdı" [12, s.11].

"Molla Nəsrəddin" jurnalının birinci nömrəsini Mirzə Cəlil Ömər Faiqlə birlikdə hazırlamış, şəkillərin mövzularını da özləri vermiş, teleqraf xəbərlərini, tapmacaları da bütün çətinliklərə qatlaşaraq müştərək tərtib etmişlər. "Molla Nəsrəddin" jurnalı 1907-ci ildə müvəqqəti bağlanarkən, Ö.F.Nemanzadə cəsarətlə yazırdı: "Biçarələr elə güman edirlər ki, "Molla Nəsrəddin" bağlanmaqla onların eyibləri örtüləcək. Dəxi bilmirlər ki, aləm sürətlə dəyişilməkdədir. Bu az maarifimizlə olsa da, içimizdə bir çox Molla Nəsrəddinlər var. Bu gün Molla Nəsrəddin batar, sabah Molla Xeyrəddin çıxar... Bu gün "Molla Nəsrəddin" bağlandı, amma "Molla Nəsrəddin"i meydana gətirən fikirlər bağlanılmayacaq..." [8]

Ö.F.Nemanzadə kəskin və cəsarətli çıxışlarına, prinsipial mövqeyinə görə, təqiblərə məruz qalmış, dəfələrlə evində axtarışlar aparılaraq yazıları müsadirə edilmişdir. 1907-ci ildə həbs edilərək Metex qalasında saxlanılmış, xalqın tələbi ilə məhbəsdən azad olunmuşdur. Böyük mollanəsrəddinçi şair Mirzə Ələkbər Sabir isə ona "Soldumu ruzgarın, ey Faiqi-Nemanpəsər" misrası ilə başlayan şeir həsr etmiş, şairin dərin təəssüf hissi və ürək ağrısı ilə yazdığı bu şeir jurnalın 1907-ci ilin 39-cu sayında dərc olunmuşdur. Jurnalın 33-cü sayında Sultan Əbdülhəmid haqqında verilmiş karikatura Ö.F.Nemanzadənin həbsinə səbəb olmuşdur. Bu məsələ jurnalda əksini tapmışdır. "Molla Nəsrəddin"in 1907-ci ilin 37-ci sayında Ö.F.Nemanzadənin O.Şmerlinq tərəfindən çəkilmiş ağzı qıfıllı, ayaqları, əlləri qandallı təsviri verilmişdir. Onun əhatəsində çar inzibati idarə orqanlarının şeytan xislətli məmurları zurna çalır, cahillər isə Ö.F.Nemanzadənin bu halını görərək sevinirlər. Şəklin altında Ö.F.Nemanzadəyə ironiya ilə yanaşanların dilindən bu nəzm parçası da verilir. 1906-1917-ci illərdə Tiflis senzor komitəsində müsəlman mətbuatı üzrə baş senzor işləmiş Mirzə Şərif Mirzəyev 1919-cu ildə yazırdı: "Ömər Faiqi 1906-1910-cu illərdə daha yaxın tanıdım. Şərq dilləri üzrə senzor kimi xidməti vəzifəmlə əlaqədar olaraq onun leqal və qeyri-leqal bütün yazılarını oxumalı olurdum... O, şüurlu şəkildə həyatını risqə qoymuşdu, deyirdi: "ya ölmək, ya da son məqsədə çatmaq". O, öz mətbəəsində Azərbaycan dilində inqilabi xarakterli müxtəlif kitablar, intibahnamələr, dəvətlər çap edərək dəfələrlə həbs və sürgün təhlükəsi yaradırdı" [14].

Rzaqulu Nəcəfov Ömər Faiq Nemanzadənin "Molla Nəsrəddin"dəki fəaliyyətini jurnalın ilk beş ili ilə əlaqələndirir, yəni 1911-ci ilə kimi. Ömər Faiq isə həmin xatirənin kənarında "1911" rəqəmini təshih edərək "1912" yazmışdır"[7]. "Molla Nəsrəddin" jurnalı nəşrə başladığı dövrdən Ö.F.Nemanzadə onun səhifələrində maraqlı və orijinal publisist yazıları, felyetonları ilə çıxış etmişdir: "Bilməli xəbərlər" (1906, №1), "Fatma xala" (1906, №26, 27), "Bir arvadın cavabı" (1906, №28), "Məktəb" (1907, №11), "Axır çərşənbə" (1907, №12), "Sirkə" (1907, №13), "Qəribə qutu" (1907, №16), "Xortdana məktub" (1907, №19), "Hicab məsələsi və cavabımız" (1907, №23), "Bakı dəryası" (1907, №27), "Cəhrəçi xala" (1907, №31), "Bakının əlacı" (1907, №31), "Oyun-oyuncaq" (1907, №47), "Ziyarət" (1908, №17), "Poçtxana" (1909, №8), "Nə deyim" (1910, №1), "Pişik" (1911, №3), "Ey İran" (1911, №3), "Söhbət" (1911, №10) və s.

Dövri mətbuatda "Molla Nəsrəddin", "Dərdmənd", "Dəli", "Mozalan", "Cəhrəçi xala", "Çoban", "Heyrani", "Məşrutəçi", "Lağlağı", "Ümidvar", "Ümid" və s. imzalarla çıxış edən Ö.F.Nemanzadə təkcə "Molla Nəsrəddin" jurnalında deyil, öz maraqlı yazılarını "Şərqi-Rus", "Tərcüman", "İrşad", "Həyat", "Açıq söz", "Tərəqqi" və s. ədəbi məcmuələrdə də çap etdirmişdir. Xalq şairi Bəxtiyar Vahabzadə Ö.F. Nemanzadənin ilk dəfə işıq üzü görən "Seçilmiş əsərləri"ni oxuduqdan sonra yazırdı: "Sətirlər arasında vətən və xalq üçün, onun taleyi üçün alışıb yanan bir ürək gördüm. Bu ürək Mirzə Cəlillərin, Sabirlərin, Hadilərin ürəyi ilə bir vurur... Ömər Faiq öz vətən sevgisindən doğulmuş bir mücahiddir, bir qəhrəmandır. Buna görə də bu sevgi onu zəmanəsinin fövqünə qal-

dırmış, ucaldığı məhəbbət zirvəsindən mühitinə baxıb hər şeyi boyasız, olduğu kimi görmüş, onun öz ölçüsünə uyğun gəlməyən eybəcərlikləri inkar etmiş, gözəllik naminə qələm çalmışdır" [2]. Ö.F.Nemanzadə görkəmli ictimai xadim, cəsarətli jurnalist, istedadlı publisist və əsl müəllim kimi fəaliyyət göstərmiş və türk dünyasına zəngin bir irs qoyub getmişdir. Xalq yazıçısı Elçin bu cəfakeş insanın fədakarlığından söhbət açaraq, "O işıq əsla sönməz" adlı məqaləsində yazır: "Yatmışları oyadır, xalqı xalqın özünə tanıdır" [5].

"Molla Nəsrəddin" jurnalı Yaxın Şərq ölkələrində geniş yayılaraq xalqların milli azadlıq uğrunda mübarizəsinə təkan vermiş, demokratik ictimai fikrin inkişafına və formalaşmasına güclü təsir göstərmişdir. XX əsrin əvvəllərində Azərbaycanda milli azadlıq hərəkatının geniş vüsət almasını, dövlət müstəqilliyi və demokratiya uğrunda aparılan mübarizəni Cəlil Məmmədquluzadəsiz, Ömər Faiq Nemanzadəsiz, Mirzə Ələkbər Sabirsiz, bütövlükdə, mollanəsrəddinçilər və "Molla Nəsrəddin" jurnalı olmadan təsəvvür etmək qeyri-mümkündür.

Şübhəsiz ki, jurnala qarşı yersiz hücumlar mollanəsrəddinçiləri eyni ideya ətrafında daha sıx birləşdirirdi. Öz maraqlı felyetonları ilə "Molla Nəsrəddin"də çıxış edən Üzeyir bəy Hacıbəyli yazırdı: "Bir-iki nəfər Məmmədquluzadələrin, Nemanzadələrin ölümü ilə elə bilirsiniz ki, "Molla Nəsrəddin"i öldürəcəksiniz...Bunu biləsiniz ki, "Molla Nəsrəddin"i öldürmək mümkün olsa da, mollanəsrəddinçiliyi öldürmək olmaz" [9]. Üzeyir bəy Hacıbəylinin bu mənalı və ibrətamiz sözləri təkcə özünün deyil, bütövlükdə dövrün qabaqcıl fikir adamlarının, mütərəqqi ziyalılarının fikirlərinin məcmusu kimi böyük əhəmiyyət kəsb edir. Professor Firudin Hüseynov milli təəssübkeşlik hissilə yazıb-yaradan mollanəsrəddinçi ədibə yüksək dəyər verərək yazır: "Cəlil Məmmədquluzadə başda olmaqla, bir çox realist söz sənətkarları Ömər Faiq Nemanzadəni minnətdarlıqla yad edir, onun nəcib əməllərini dəyərləndirir, xatirəsini uca tuturlar. Bunun sirri Ömər Faiqin bütöv şəxsiyyətində, iti və kəsərli qələmində, ideya düşmənlərinə qarşı amansızlığında, vətəndaşlıq qeyrəti və cəsarətində, dəyişməz dost və məslək sahibi olmasında, dərin ictimai-siyasi məzmunlu publisist əsərlərindədir" [6, s.259].

Məlumdur ki, erməni daşnakları zaman-zaman torpaq iddiaları ilə qanlı savaşlara yol açmış, xalqımızı rus şovinizminin əli ilə soyqırıma məruz qoymuşlar. Qanlı savaşların qurbanına çevrilən, aclıq və səfalətdən əziyyət çəkən soydaşlarımızın faciəli həyatı, yaşam tərzi mollanəsrəddinçilərin yaradıcılığında da mühüm yer tuturdu. Ömər Faiq Nemanzadə "Millətpərəstlik zamanıdır" adlı məqaləsində yazırdı: "Ey ürəyində bir zərrə mərhəməti olanlar, ey insana dost və millətpərəst görünənlər! Məmləkətimizin, camaatımızın bir payı aclıqdan həlak olur. Bunların bu ciyərsiz həlakı isə bizi daha dəhşətli, daha təhlükəli həlakətə sürür. Əgər Zəngəzura, Qarabağa vaxtında kömək edə bilməsək, o əhəmiyyətli yerlər əlimizdən çıxarsa, yaxşı biliniz ki, cümləmiz qeyrət və namussuzluqla yad olunmaqdan savayı bütün məmləkətlərimiz, bütün həyatımız əbədi təhlükələrə düçar olacaqdılar. Qardaşlar! Həqiqi dindarlıq xülüskarı-millətpərəstlik, yetmiş il ibadətin bir saat xeyir və ehsanat etməklik zamanı bu zamandır. Gəliniz biz də əcdadımızın həqiqi nəvələri olduğunu bildirib türklüyümüzü, müsəlmanlığımızı isbat edək" [13,s.134].

Ömər Faiq Nemanzadəni türk dünyasının bir ziyalısı kimi mənsub olduğu xalqın taleyi düşündürürdü. O, öz həmvətənlərini dünyanın azad, demokratik düşüncəli, yüksək elmə, maarifə və mədəniyyətə mənsub xalqları sırasında görmək istəyirdi. Buna görə də böyük ədib bu yüksək məfkurəli fikirlərini, arzu və istəklərini özünün "Milli məsələlərimizin vaxtımı?" adlı məqaləsində bəyan edərək yazırdı: "Rusiyada 25-30 milyon türk var, bunların ictimai-siyasi idealları olması da təbiidir. Burasını danmaq deyil, sükutla keçmək belə həm milləti, həm də hökuməti aldatmaqdır... Biz Rusiya türklərinin özümüzə görə ictimai-siyasi arzularımız var. Bu arzuları böyük və qəbul olunmayacaq bir şey sanmayınız! Biz artıq bir zad istəmiriz. İstədiyimiz budur ki, bizə də insanlıq hüququ verilsin... Vaxtdır ki, özümüzü tanıyalım. Vaxtdır ki, həqqi-ədalətsizliyin üzündən millətimiz "varlığının təhlükəyə düşməkdə olduğunu" qanalım" [1].

Ö.F.Nemanzadə, hər şeydən öncə, mətbuatın tərəqqisinin mühüm şərtini onun milli dilə söykənməsində, ana dilinin təbliği və ziyalılar tərəfindən bu istiqamətdə mühüm addım atılmasında görürdü. "Müstəqil dil və ədəbiyyatı olmayan bir millətin siyasi istiqlalı da sağlam ola bilməz", – deyən Ö.F.Nemanzadənin yaradıcılığında ana dilinin qorunması, onun varlığının əbədiliyi prioritet mövzulardandır. O, doğma dilə olan sonsuz sevgisini "Eşq və məhəbbət" adlı məqaləsində yana-yana izhar edərək yazır: "Mən inanmıram ki, dilini sevməyən millətini sevsin. Çünki dil millətin tək nişanıdır, millət sevgisinin birinci əlamətidir... Məhəbbətlərimizin ən üst qatına dil məhəbbətini çıxarmalıyıq. Dilimizi sevmək hamımızın ən birinci müqəddəs borcu olmalıdır" [13,s. 203].

"Molla Nəsrəddin" jurnalının əsas mövzularından olan qadın azadlığı problemi Ömər Faiq Nemanzadənin yaradıcılığında xüsusi yer tutur. Onun jurnalın 1907-ci ilin 19-cu sayında "Dərdmənd" imzası ilə dərc etdirdiyi "Xortdana məktub" felyetonu geriliyə, cəhalətə, köhnə adət-ənənələrə, qadın heysiyyətinin tapdanmasının tənqidinə həsr olunmuş maraqlı və düşündürücü publisistik nümunələrdəndir. Jurnalın növbəti sayında "İdarədən" başlığında yer alan "Zövci-axər" adlı publisistik yazıda deyilir: " Keçən nömrəmizdə "zövci-axər" məsələsi barəsində "Dərdmənd" yazdığı məktubu bir nəfər firəng səyyahı oxuyub gəlmişdi idarəmizə və bizdən təhqiq edirdi ki, doğrudurmu ki, bir müsəlman üç dəfə övrətinə təlaq verəndən sonra əgər övrəti ilə barışmaq istəsə, gərək bir neçə günlüyə övrəti verə özgə ərə, sonra o boşaya və ondan sonra övrəti alıb gətirə evinə. Biz firəngə yalandan dedik ki, belə bir şey biz müsəlmanlarda yoxdur..." [10] Ədibin "Bir neçə günlüyə" adlı üçüncü felyetonunda da qadın azadlığı problemi aktual bir məsələ kimi davam etdirilir. O yazırdı: "Biz Molla Nəsrəddinik. Bizim peşəmiz ilan-qurbağaya sataşmaqdır, biz dərd edirik ki, nə səbəb bizim millətimiz insaniyyətdən, mərifətdən, namus və qeyrətdən, dindən və şəriətdən bu dərəcə kənara düşüblər" [11].

## **Nəticə / *Conclusion***

1918-ci ildə Azərbaycanda Xalq Cümhuriyyəti qurulanda Ö.F.Nemanzadə doğma yurdu Ahısqada türklərin azadlıq mübarizəsinin önündə getmiş və üç dəfə həbs edilmişdi. 1918-ci il fevralın 18-də gürcü menşevik parlamanın iclası Ö.F.Nemanzadə məsələsini müzakirə edərək həbsdən azad etməyə məcbur olmuşdur. Ö.F.Nemanzadə Bakıya gəlmiş və Azərbaycan Xalq Cümhuriyyətinin polis idarəsində nəzarətçi müfəttiş vəzifəsində çalışmışdır. O,1920-ci ildə "Zəhmətkeşlərin gözü" jurnalının redaktoru, sonra "Yeni fikir" qəzetinin redaksiya heyətinin üzvü, 1921-1922-ci illərdə Gürcüstan İnqilab Komitəsinin üzvü olmuş və komitənin nəzdində yaradılmış müsəlman sektorunun sədri işləmişdir. 1920-ci illərin axırlarında Ö.F.Nemanzadə Gəncə Kənd Təsərrüfatı Texnikumunun direktoru işləmişdir. 1927-ci ildə Ö.F.Nemanzadənin xəstəliyi və xidmətlərini nəzərə alaraq ona ömürlük təqaüd kəsilmişdir. Ancaq o, yenə də xalq maarifi sahəsində işlər görür, dərsliklər hazırlanmasında iştirak edirdi. Ö.F.Nemanzadə 1927-ci ildən 1930-cu ilə qədər hər il nəşr olunan "Üçüncü il" dərsliyinin əsas müəlliflərindən biri idi.

Ö.F.Nemanzadə ömrünün son illərini xatirələr üzərində işləmiş və XIX əsrin səksəninci illərindən başlayaraq 1906-cı ilə qədər olan dövrü tamamlaya bilmişdir. Təəssüf ki, o, xatirələrini başa çatdırmamışdı.1937-ci ilin 16 iyulunda ata yurdu Axalsıxda (Gürcüstan) dincələrkən rayon prokuroru Odabaşyanın sərəncamı ilə həbs olunmuş və üç aydan sonra, oktyabrın 10-da Gürcüstan SSR Xalq Daxili İşlər Komissarlığının nəzdindəki "Üçlüyün" qərarı ilə güllələnmişdir. Hüseyn Cavid, Əhməd Cavad, Mikayıl Müşfiq və Azərbaycanın minlərlə ziyalısı kimi, Ömər Faiq Nemanzadə də repressiyanın günahsız qurbanına çevrilmişdir. 1958-ci ildə Gürcüstan SSR Ali Məhkəməsi ona bəraət vermiş, böyük ədibin onsuz da qəlblərdə yaşayan zəngin ədəbi irsi yenidən xalqımıza qaytarılmışdı.

Türk xalqlarının ictimai-siyasi və ədəbi-mədəni həyatında, azadlıq, istiqlal, milli oyanış və tərəqqisində müstəsna rol oynayan, çoxşaxəli

yaradıcılığı ilə Azərbaycanda mətbuat və ədəbiyyatın inkişafına böyük töhfələr verən, "Molla Nəsrəddin" ədəbi məktəbinin yaradıcılarından və fəal üzvlərindən biri kimi xalqımıza təmənnasız xidmət göstərən Ömər Faiq Nemanzadə bütöv şəxsiyyəti və təkrarsız yaradıcılığı ilə ədəbiyyat və mətbuatımızın zirvəsində əbədi yaşayacaqdır.

**Ədəbiyyat / *References***


1. "Açıq söz" qəzeti, 10,11,25 noyabr, 6 dekabr 1915, № 31, 32, 44, 54.
2. Bəxtiyar Vahabzadə. Yanar ürək. "Ədəbiyyat və incəsənət" qəzeti, 23 dekabr 1983.
3. C.Məmmədquluzadə. Əsərləri. VI cild. Bakı, 1985.
4. C.Məmmədquluzadə. Əsərləri. Dörd cilddə, IV cild. Bakı: Öndər, 2004.
5. "Ədəbiyyat və incəsənət" qəzeti, 11 noyabr 1983.
6. Firudin Hüseynov. "Molla Nəsrəddin" və mollanəsrəddinçilər. Bakı: Yazıçı, 1986.
7. "İnqilab və mədəniyyət", 1936, № 4-5.
8. "İrşad" qəzeti, 1907, 13 iyul, № 110.
9. "İrşad"qəzeti, 1908, 21 fevral, № 22.
10. "Molla Nəsrəddin" jurnalı, 1907, № 20.
11. "Molla Nəsrəddin", 1907, № 23.
12. Ömər Faiq Nemanzadə. Xatirələrim. Bakı, 1983.
13. Ömər Faiq Nemanzadə. Seçilmiş əsərləri. Bakı: Şərq-Qərb, 2006.
14. Şarif Mirzoev. Vokruk imeni Omara Faik Efendi. Qazeta "Qruziya". 16 mart 1919, №59.


## Омар Фаиг Неманзаде и литературная школа «Молла Насреддин»


**Гюльбениз Бабаева**
Доктор философии по филологии
Институт литературы имени Низами Гянджеви НАНА. Азербайджан.
E-mail: gulbeniz_babayeva@mail.ru



**Резюме.** В статье говорится об исключительных заслугах известного публициста, писателя, педагога, издателя, критика Омара Фаига Неманзаде в создании, формировании и распространении на международном уровне литературной школы «Молла Насреддин». Единство убеждений и деятельности наших великих писателей-реалистов Джалила Мамедкулизаде и Омара Фаига Неманзаде в деле национального пробуждения азербайджанского народа, в борьбе за свободу и демократию затрагивается в исследовании на основе конкретных фактов. О.Ф.Неманзаде, один из главных создателей литературного движения «Молла Насреддин», был одним из ближайших соратников Джалила Мамедкулизаде в приобретении типографии «Гейрат», издании журнала «Молла Насреддин», сыгравшего исключительную роль в судьбах народов Востока, в прогрессе науки, образования и культуры. Писатель имеет большие заслуги в подборе публицистических статей, фельетонов, телеграфных новостей, а также карикатур, публикуемых в журнале. В статье упоминается, что О.Ф.Неманзаде, работавший в «Молла Насреддине» до 1912 г., наряду с организационной работой, также публиковал в журнале публицистические статьи и фельетоны под псевдонимами «Молла Насреддин», «Дэрдмэнд», «Дэли», «Мозалан», «Джехречи хала», «Чобан», «Хейрани», «Машрутачи», «Лаглаги», «Умидвар», «Умид» и др.



**Ключевые слова:** Омар Фаиг Неманзаде, Джалил Мамедгулузаде, журнал «Молла Насреддин», типография «Гейрат», «Дардманд», «Умидвар», сатирическая публицистика